# Azərbaycanın ictimai və mədəni inkişafında Ağa Musa Nağıyevin rolu

**AMEA Rəyasət Heyətinin binasında "Azərbaycanın ictimai və mədəni inkişafında Ağa Musa Nağıyevin rolu" mövzusunda elmi konfrans keçirilib.**



Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, AMEA-nın İctimai Elmlər Bölməsinin üzvləri, eləcə də Milli Məclisin deputatı filologiya elmləri doktoru Jalə Əliyeva, Ağa Musa Nağıyevin nəvəsi, Milli Dəyərlərin Qorunması İctimai Birliyinin sədri tarix üzrə fəlsəfə doktoru Dilarə Nağıyeva, AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun, ETN Zoologiya İnstitutunun, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nümayəndələri və aidiyyəti şəxslər iştirak ediblər.

Akademik İsa Həbibbəyli konfransı giriş sözü ilə açaraq ölkə Prezidenti İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli Sərəncamı işığında bir sıra tədbirlərin keçirildiyini bildirib. Qeyd edib ki, ölkə başçısının Sərəncamından irəli gələrək bu günlərdə Qarabağ Universitetində Elm və Təhsil Nazirliyi və AMEA-nın birgə təşkilatçılığı ilə Akademiyanın 80 illiyinə həsr olunmuş "Azərbaycan Milli Elmlər Akademiyasında Qarabağnamə ənənəsi və müasir dövr" mövzusunda elmi konfrans keçirilib. Akademik İsa Həbibbəyli işğaldan azad edilmiş ərazilərdə ölkə Prezidentinin rəhbərliyi ilə uğurla həyata keçirilən "Böyük Qayıdış" Dövlət proqramının icrası işığında elmi konfransın mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Ötən 80 il ərzində Milli Elmlər Akademiyasının həyatında mühüm rol oynamış görkəmli alimlərin, şəxsiyyətlərin də yubileyinin qeyd olunduğunu deyən akademik İsa Həbibbəyli bildirib ki, həmin şəxslər sırasında Ağa Musa Nağıyev də böyük xeyriyyəçilik fəaliyyəti ilə seçilir. Diqqətə çatdırıb ki, AMEA Rəyasət Heyətinin tarixi binası məhz Ağa Musa Nağıyev tərəfindən vaxtsız vəfat edən oğlu İsmayılın şərəfinə 1908-1913-cü illərdə tikilib. Vurğulayıb ki, bina Şərq və Qərb memarlıq elementlərini özündə əks etdirir və yunan-roma memarlığının incəliklərini, həmçinin Azərbaycan memarlığının xüsusiyyətlərini burada görmək mümkündür.

Ağa Musa Nağıyevin xeyriyyəçilik fəaliyyətinin ictimaiyyətə və gənc nəslə çatdırılmasında nəvəsi, Milli Dəyərlərin Qorunması İctimai Birliyinin sədri tarix üzrə fəlsəfə doktoru Dilarə Nağıyevanın böyük xidmətləri olduğunu deyən akademik İsa Həbibbəyli onun bu missiyanı şərəflə yerinə yetirdiyini vurğulayıb. Bildirib ki, Dilarə Nağıyevanın "Tarix yaşadan binalar" kitabı Azərbaycan tarix elmi, ictimai və humanitar elmlərimiz üçün dəyərli və etibarlı mənbədir.

Daha sonra Akademiya muzeyinin baş mütəxəssisi sənətşünaslıq üzrə fəlsəfə doktoru Aynurə Həşimovanın müəllifi olduğu, Ağa Musa Nağıyevin və oğlu İsmayılın əksini tapdığı tablo konfrans iştirakçılarına təqdim edilib.

Tədbir AMEA-nın İctimai Elmlər Bölməsinin Elmi şurasının sədr müavini akademik Nərgiz Axundovanın moderatorluğu ilə davam etdirilib.

Konfransda AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun şöbə müdiri professor Hacı Həsənovun "Baba irsi və tədqiqatçısı" və Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Taleh Cəfərovun "Neft kralı Ağa Musa Nağıyev neftdən xeyriyyəçiliyə uzanan yol" mövzusunda məruzələri dinlənilib.

Həmçinin AR Milli Məclisinin deputatı filologiya elmləri doktoru Jalə Əliyeva, Azərbaycan Qadınları Respublika Cəmiyyəti İctimai Birliyinin sədri Bahar Qasımova və ETN Zoologiya İnstitutunun əməkdaşı biologiya elmləri doktoru Yeganə Mahmudova çıxış edərək Ağa Musa Nağıyevin xeyriyyəçilik fəaliyyətindən və xalqımıza xidmətlərindən danışıblar.

Sonda çıxış edən Ağa Musa Nağıyevin nəvəsi, Milli Dəyərlərin Qorunması İctimai Birliyinin sədri tarix üzrə fəlsəfə doktoru Dilarə Nağıyeva çıxışının sonunda tədbirin təşkilinə və babasının xatirəsinə verilən dəyərə görə Akademiya rəhbərliyinə minnətdarlığını bildirib.

Elm .-2025.- 13 iyun(№20).- S.6.